

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 76 (21.737)

22 aprel 2017-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də Beynəlxalq Şahmat Federasiyasının prezidenti Kirsan İlümjinovu qəbul edib.

Beynəlxalq qrossmeyster Vüqar Həşimovun xatirəsinə həsr olunan "Shamkir Chess 2017" superturnirin yüksək səviyyədə təşkil olunduğunu qeyd edən Beynəlxalq Şahmat Federasiyasının prezidenti Kirsan İlümjinov bildirib ki, dünyada xeyli sayda insan bu tədbirə böyük maraq göstərir.

"Shamkir Chess 2017" superturnirin əhəmiyyətinə toxunan dövlətimizin başçısı onun artıq ənənəvi bir tədbirə çevrildiyini, şəxsən Kirsan İlümjinovun və dünyanın aparıcı şahmatçılarının bu turnirdə iştirakını tədbirin səviyyəsinin daha da yüksəlməsi işinə xidmət etdiyini vurğulayıb. Prezident İlham Əliyev bu cür mötəbər beynəlxalq tədbirlərin təkcə Bakıda deyil, Azərbaycanın regionlarında da keçirilməsinin önəmini qeyd edib. Dövlətimizin başçısı, ümumilikdə, Azərbaycanın regionlarının inkişaf etdirilməsi və lazımi infrastrukturun yaradılması baxımından ölkəmizdə böyük işlərin görüldüyünü vurğulayıb.

Söhbət zamanı Azərbaycanda dövlət səviyyəsində idmana böyük qayğı göstərildiyi bildirilib və əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.



## Dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi və vəzifə təlimatlarının hazırlanmasına həsr olunmuş seminar keçirilib



***Aprelin 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada 51 dövlət orqanı nümayəndəsinin iştirakı ilə "Dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi" və "Dövlət qulluqçularının vəzifə təlimatlarının hazırlanması" mövzularında seminar keçirilib.***

Seminarda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədri İsmayıl Qəribli çıxış edərək bildirib ki, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 30-1-ci maddəsinə əsasən, inzibati vəzifə tutan dövlət qulluqçularının illik xidməti fəaliyyəti qiymətləndirilməlidir. Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsində məqsəd onun il ərzində vəzifəsinin öhdəsindən gəlməsini, tutduğu vəzifəyə dair tələblərin yerinə yetirilməsini qiymətləndirməkdən və dövlət qulluqçusunun gələcək inkişafını müəyyən etməkdən ibarətdir. Qeyd olunan normanın Naxçıvan Muxtar Respublikasında icrasının təmin edilməsi məqsədilə 2016-cı ildə ilk dəfə olaraq muxtar respublikada dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsinə başlanılıb. Həmin ildə inzibati vəzifə tutan 1522 dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi həyata keçirilib. Bu zaman bəzi çatışmazlıqlar müşahidə olunub. Belə ki, əksər dövlət orqanlarında xidməti fəaliyyətin qiymətləndirilməsinə məsul olan şəxslər tərəfindən müvafiq sənədlərin tərtib edilməsi zamanı rüblük qeydlər aparılmayıb, dövlət qulluqçuları il ərzində həyata keçirəcəkləri tapşırıqlarla vaxtında tanış edilməyib. Bugünkü seminarın keçirilməsində əsas məqsəd xidməti fəaliyyətin qiymətləndirilməsi zamanı ortaya çıxan çatışmazlıqların diqqətə çatdırılması və cari ildə bu işin qanunvericiliyin tələblərinə uyğun həyata keçirilməsinin təmin edilməsidir.

İsmayıl Qəribli qeyd edib ki, vəzifə təlimatları dövlət qulluqçusunun tutduğu vəzifənin funksiyalarının təsvir edilməsi üçün tərtib olunur. Dövlət qulluqçusu fəaliyyətini vəzifə təlimatlarının tələblərinə uyğun olaraq həyata keçirməlidir. Həmçinin xidməti fəaliyyətin qiymətləndirilməsi aparılan zaman dövlət qulluqçusunun il ərzində icrası üçün nəzərdə tutulmuş tapşırıqlar onun vəzifə təlimatlarında göstərilmiş qulluq funksiyalarına uyğun olmalıdır. Bundan başqa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarına əsasən vəzifə təlimatlarında hər hansı əlavə və dəyişiklik olduqda, dövlət orqanı bu barədə bir ay müddətində həmin məlumatları komissiyaya təqdim etməlidir.

Seminarda komissiyanın sektor müdiri Türkan Gülməmmədli və şöbə müdiri Ümid Qurbanov dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi və vəzifə təlimatı qaydalarını izah ediblər.

Seminarda mövzulara bağlı slaydlar nümayiş olunub, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## "Yeni Azərbaycan Partiyası və tələbə gəncliyin inkişafı məsələləri" mövzusunda elmi konfrans

***Naxçıvan Dövlət Universitetində Yeni Azərbaycan Partiyası Universitet şəhərciyi ərazi ilk təşkilatının keçirdiyi elmi konfransı universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açıb. Rektor bildirib ki, Yeni Azərbaycan Partiyası dünənin tələbi ilə yaranan, ölkəmizin inkişafında mühüm rolu olan, bu günün və gələcəyin partiyası, xalqın inam, güvənc yeri, həmrəylik və birlik rəmzidir.***

Universitet Yeni Azərbaycan Partiyası Universitet şəhərciyi ərazi ilk təşkilatının sədri Asəf Əliyev "Yeni Azərbaycan Partiyasının gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında rolu" adlı məruzə ilə çıxış edib. O vurğulayıb ki, 1992-ci il noyabrın 21-də Naxçıvanda xalqa, millətə xidmət etmək üçün yaradılan Yeni Azərbaycan Partiyası ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə uğurla öz məqsəd və məramını həyata keçirməyə başlayıb. Hazırda Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının, ümumilikdə, 1157 üzvü vardır ki, onlardan 202-si müəllimlər, 897-ni isə tələbələr təşkil edir.

Universitet Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Elgün Tağıyev "Yeni Azərbaycan Partiyası və tələbə gənclik" mövzusunda məruzə edərək bildirib ki, Yeni Azərbaycan Partiyası Gənclər Birliyi 1995-ci ildə təsis olunub. Məqsəd gənclərin siyasi cəhətdən təşkilatlanması, gənc tələbələrin ictimai-siyasi fəallığının təmin edilməsi, onların potensial gücünün ali məqsədlərə doğru düzgün istiqamətləndirilməsini təşkil etməkdən ibarətdir. Məruzədə Naxçıvan Dövlət Universiteti Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin gördüyü işlər barədə ətraflı məlumat verilib.

Bədən tərbiyəsi və idman kafedrasının əməkdaşı Nicat Allahverdiyevin "Universitet gənclərinin idmanda uğurları" adlı məruzəsində qeyd olunub ki, gün müstəqil Azərbaycan dövlətinin ən uğurlu və prioritet məsələlərindən biri dövlət gənclər siyasətidir. Aparılan bu siyasət gənclərə ictimai həyatın bütün sahələrində fəal iştirak etməyə geniş imkanlar açır.

Universitet Tələbə Elmi Cəmiyyətinin sədri Bətulə Əlizadə "Partiya üzvü olan tələbələrin elmi fəaliyyəti" adlı məruzəsində qeyd edib ki, ali təhsil ocağının professor-müəllim və tələbə kollektivinin ictimai-siyasi cəhətdən fəal hissəsi Yeni Azərbaycan Partiyasının Universitet şəhərciyi ərazi ilk təşkilatında birləşib. Cari tədris ilində 600 baldan yuxarı nəticə göstərmiş tələbələr də daxil olmaqla 150-dən çox tələbənin partiya sıralarına qəbul edilməsi Yeni Azərbaycan Partiyasının gənclər arasında artan nüfuzunun göstəricisidir.

Sonda Yeni Azərbaycan Partiyası sıralarına yeni qəbul olunmuş tələbələrə üzvlük vəsiqələri təqdim olunub.

**Nərmin CABBAROVA**

## Naxçıvan şəhərində keçirilən əmək yarmarkasına müəssisə və təşkilatlardan 530-dan çox boş iş yeri təqdim olunub

***İşaxtaran vətəndaşların müvafiq iş yerləri ilə təmin olunması məqsədilə muxtar respublikanın şəhər və rayonlarında vaxtaşırı təşkil olunan əmək yarmarkaları aktiv məşğulluq tədbirlərindən sayılmaqla işaxtaranların daimi işlə təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Növbəti belə əmək yarmarkası dünən Naxçıvan şəhərində təşkil edilib.***

Tədbiri giriş sözü ilə Naxçıvan Şəhər Məşğulluq Mərkəzinin direktoru Əli Məmmədov açaraq qeyd edib ki, Naxçıvan şəhərində aparılan tikinti-quruculuq işlərinin genişləndirilməsi, müxtəlif istehsal və xidmət sahələrinin fəaliyyətə başlaması, həmçinin müxtəlif dövlət müəssisələrində müvafiq ştatlara olan tələbatın ödənilməsi nəticəsində xeyli iş yeri yaradılıb. Bu da işaxtaran vətəndaşların qarşısında geniş imkanlar açır. Keçirilən əmək yarmarkaları isə əhalinin məşğulluğunun təmin olunmasında və sosial müdafiəsinin yaxşılaşdırılmasında mühüm rol oynayır.



Naxçıvan Şəhər İcra Hakimiyyətinin əməkdaşı İsmayıl Gülməmmədov bildirib ki, Azərbaycan vətəndaşlarının sosial rifahının yüksəldilməsi, əhalinin məşğulluğunun təmin olunması istiqamətində həyata keçirilən tədbirlərin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Hazırda uğurla davam etdirilən bu strateji xətt muxtar respublikamızın sosial-iqtisadi inkişafını sürətləndirməklə bərabər, əhalinin rifah halının yaxşılaşdırılmasına da geniş imkanlar açıb. Mütəmadi olaraq təşkil edilən əmək yarmarkaları isə qarşıya qoyulmuş vəzifələrin icrası yönündə həyata keçirilən tədbirlərdəndir.

Naxçıvan şəhərində təşkil edilən əmək yarmarkasına 19-u özəl olmaqla, 65 müəssisə və təşkilatdan 537 boş iş yeri təqdim olunub, 24 nəfərə işə göndəriş verilib, 3 nəfər peşə hazırlığı kurslarına göndərilib.

Qeyd edək ki, əmək yarmarkaları Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən muxtar respublikanın rayonlarında da keçirilib.

**Səbuhi HÜSEYNOV**

*Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində yaradılan səyyari xidmətin fəaliyyəti əhali tərəfindən yüksək qiymətləndirilir.*

## Səyyari xidmət Babək rayonunda fəaliyyətini davam etdirir

Nazirliyin əməkdaşı, polis kapitanı Seymur Tağıyevin sözlərinə görə, "Hyundai" markalı səyyari xidmət avtomobili vasitəsilə yerlərdə vətəndaşlara ümumvətəndaş pasportlarının və şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, məhkumluq haqqında və arxiv arayışlarının verilməsi, ov silahlarının qeydiyyata alınması üzrə hüquqi xidmətlər göstərilir.

Seymur Tağıyevdən aldığımız məlumata görə, ötən illər ərzində səyyari xidmət uğurla fəaliyyət göstərib. 2015-ci il ərzində səyyari xidmətə 6 min 320 müraciət olub. Onlardan 5 min 123-ü şəxsiyyət vəsiqəsi, 1155-i sürücülük vəsiqəsi, 29-u ümumvətəndaş pasportu, 2-si ov silahlarının qeydə alınması, 11-i məhkumluq arayışı almaq üçün müraciətlərdir.

Xidmət 2016-cı ili də uğurla başa çatdırıb. Belə ki, bəhs olunan dövrdə səyyari xidmətə 6062 müraciət edilib. Onlardan 4 min 627-si şəxsiyyət vəsiqəsi, 1386-sı sürücülük vəsiqəsi, 5-i ümumvətəndaş pasportu, 44-ü məhkumluq arayışı almaq üçün olunan müraciətlərdir.

Səyyari xidmət 2017-ci ildə fəaliyyətinə Şərur rayonundan başlayıb. Sədərək və Ordubad rayonlarında olub. Hazırda Babək rayonunda fəaliyyətini davam etdirir. Bu günədək rayonun Nehrəm, Qahab, Sirab və Yarımca kəndlərində əhaliyə səyyari xidmət göstərilir. Ümumilikdə, ilin ötən dövrü ərzində səyyari xidmətə edilən müraciətlərin sayı 1740-a çatıb. Onlardan 1270-i şəxsiyyət vəsiqəsi, 436-sı sürücülük vəsiqəsi, 10-u məhkumluq arayışı üçün olunan müraciətlərdir.

Dünən səyyari xidmət rayonun Kərimbəyli kəndində olub. Şəxsiyyət vəsiqəsi üçün 23, sürücülük vəsiqəsi üçün 6, məhkumluq arayışı üçün 1 nəfər xidmətə müraciət edib. Növbəti həftənin bazar ertəsi səyyari xidmət Zeynəddin kəndində olacaq.

**Muxtar MƏMMƏDOV**

## Behbud ağa Şahtaxtinski irsini yaşadacaq dəyərli nəşr

***Son iyirmi ildə Naxçıvan Muxtar Respublikasında geniş vüsət alan məqsədyönlü işlər içərisində nəinki burada yaşayıb yaradan, hətta Bakıda çalışan alimlərin də Naxçıvanın tarixi və mədəniyyəti ilə bağlı hazırladıqları ümumiləşdirici əsərlərin, kitab və monoqrafiyaların nəşr etdirilib elmi ictimaiyyətə çatdırılması mühüm yer tutur. Bu baxımdan Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərinin həyat və fəaliyyətinə həsr olunmuş əsərlərin də özünəməxsus yeri vardır. Belə şəxsiyyətlərdən biri də Azərbaycanın və onun Naxçıvan Muxtar Respublikasının siyasi tarixində iz qoyan görkəmli dövlət xadimi və diplomat Behbud ağa Şahtaxtinskidir. Azərbaycanın bir sıra taleyüklü məsələlərinin, xüsusilə Naxçıvana muxtariyyət verilməsində mühüm xidmətləri olan, Moskva müqaviləsinin hazırlanmasında böyük əmək sərf edən, Qars müqaviləsinin imzalanmasında Azərbaycanı təmsil edən Behbud ağa Şahtaxtinski, çox təəssüflər olsun ki, uzun illər öz layiqli qiymətini ala bilməmiş, Azərbaycan dövlət müstəqilliyini bərpa edənədək onun həyatı və fəaliyyəti tədqiq olunmamış, xalqa tanıtdırılmamış, əksinə, unutdurulmuşdur.***




Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra onun haqqında ilk tədqiqatlar aparılmağa başlanılmış, dissertasiya müdafiə olunmuş, 2 kitab və dövri mətbuatda məqalələr işıq üzü görmüşdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2011-ci il 21 fevral tarixli "Görkəmli dövlət xadimi və diplomat Behbud ağa Şahtaxtinskinin 130 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamından sonra bu iş daha sistemli xarakter aldı. Bu baxımdan 2011-ci il oktyabrın 12-də Behbud ağa Şahtaxtinskinin 130 illik yubileyi ilə əlaqədar Naxçıvan şəhərində keçirilən və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun iştirak və çıxış etdiyi elmi konfransın çox böyük əhəmiyyəti oldu. Bundan sonra Behbud ağa Şahtaxtinskinin əsərləri, haqqında olan arxiv materialları toplanmış, bir sıra məqalələr yazılaraq nəşr etdirilmiş,"Naxçıvan" ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnalının xüsusi nömrəsi ona həsr olunmuş və digər işlər görülmüşdür. Bu işlərin davamı olaraq Naxçıvanşünaslıq elmi xəzinəsini Behbud ağa Şahtaxtinski irsi ilə zənginləşdirən bir əsər də işıq üzü görmüşdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin himayəsi ilə nəşr olunmuş "Behbud ağa Şahtaxtinski: sənədlər və materiallar" kitabı görkəmli diplomat haqqında dəyərli elmi mənbədir.

Kitabın tərtibatçısı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Himayəçilik Şurasının üzvü, akademik İsmayıl Hacıyevdir. "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində yüksək poliqrafik keyfiyyətlə nəşr edilən kitab Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ***"Kim Azərbaycanın milli mənafelərinin keşiyində durubsa, ona xidmət göstəribsə, o insanlar bizim tariximizdə həmişə hörmətlə yada salınmalıdırlar və tariximizə daxil olmalıdırlar"*** fikirləri ilə başlayır. Kitaba "Görkəmli dövlət xadimi və diplomat Behbud ağa Şahtaxtinskinin 130 illik yubileyinin keçirilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 21 fevral tarixli Sərəncamı, həmin sərəncamla təsdiq olunan Behbud ağa Şahtaxtinskinin 130 illik yubileyinin keçirilməsi ilə bağlı Tədbirlər planı, Behbud ağa Şahtaxtinskinin 130 illik yubileyi münasibətilə Naxçıvan şəhərində keçirilən elmi konfransda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun proqram xarakterli, istiqamətverici çıxışının mətni daxil edilmişdir. Kitabın elmi redaktoru akademik İsa Həbibbəylidir. Kitaba daxil edilən materialları toplayan və tərtib edən akademik İsmayıl Hacıyevin geniş ön söz yazdığı "Behbud ağa Şahtaxtinski: sənədlər və materiallar" kitabı 5 bölmədən ibarətdir. Qeyd etmək yerinə düşər ki, 100-dən artıq məktub, teleqram, məqalə, müqavilə, protokol, akt və sairi özündə birləşdirən, uzun müddət tədqiqat obyektinə çevrilməmiş bu sənəd və materialların böyük əksəriyyəti ilk dəfə bu kitab vasitəsilə oxuculara təqdim olunur. Kitabın elmi dəyərini artıran cəhətlərdən biri də ora daxil edilən və orijinalı rus dilində olan sənəd və materialların Azərbaycan dilində tərcüməsinin, bəzi sənədlərin fotosurətlərinin verilməsidir.

Məlum olduğu kimi, Behbud ağa Şahtaxtinskinin şəxsiyyətinə və siyasi fəaliyyətinə münasibət birmənalı olmamışdır. Bəziləri onu qatı bolşevik olmaqda, Azərbaycanın gələcəyinin xoşbəxt olmasını ancaq sovet hakimiyyətində görməkdə günahlandırmışdır. Kitabdakı tarixi sənədlər və faktlar bir daha təsdiq edir ki, o tutduğu vəzifədən asılı olmayaraq ümummilli məsələlərdə həmişə Azərbaycanın, onun qədim mədəniyyət mərkəzlərindən olan Naxçıvanın mənafeyi baxımından çıxış etmiş, bu işdə yorulmadan çalışmış, fəaliyyət göstərmişdir. Bu gün Azərbaycan xalqı, xüsusilə Naxçıvan əhalisi onun Naxçıvanın Azərbaycanın tərkibində muxtar respublika kimi saxlanmasında göstərdiyi xidmətləri minnətdarlıqla yad edir.

Kitaba daxil edilən müxtəlif sənədlərdən göründüyü kimi, Behbud ağa Şahtaxtinski Azərbaycanın taleyüklü məsələləri, xüsusilə ölkə ərazisinin bütövlüyü ilə bağlı məsələlərdə heç nədən, hətta öz iradlarını sovet dövlətinin başçısı V.İ.Leninə bildirməkdən belə çəkinməmişdir. 1920-ci il sentyabrın 20-də V.İ.Leninə ünvanladığı məktubda Behbud ağa Şahtaxtinski Azərbaycanın ən ağrılı məsələsi olan Ermənistanla münasibətlərə, ermənilərin azərbaycanlılara qarşı törətdiyi qırğınlara, Ermənistanın Azərbaycana, o cümlədən Naxçıvana ərazi iddialarına toxunaraq yazırdı ki, "Qızıl Ordu müsəlman əhalisini hətta Ermənistanla həmsərhəd ərazilərdə də bütün vasitələrlə silahsızlaşdırmağa çalışır... Müsəlman əhalisi silahsızlaşdırılır, daşnakların silahlı dəstələri müsəlman kəndlərini amansızcasına doğrayıb tökür və məhv edirlər... Azərbaycanlı kütlə Naxçıvan diyarının az qala bütünlüklə Ermənistana verilməsi xəbərini eşitdikdə dəhşətə gəlir". Həmin dövrdə bu sözləri V.İ.Leninə demək və ya yazmaq heç də hər bir vəzifə sahibinin işi deyildi. Bunu ancaq Behbud ağa Şahtaxtinski kimi cəsarətli, qorxmaz, vətənpərvər, ölkəsi və xalqı uğrunda həyatını riskə qoyan şəxsiyyətlər edə bilərdi.

Naxçıvan məsələsi Behbud ağa Şahtaxtinskinin siyasi fəaliyyətində xüsusi yer tutur. Bu cəhət onun sovet hakimiyyəti illərində Naxçıvanda yüksək vəzifələrdə işlədiyi dövrlərdə özünü daha parlaq göstərir. Məlumdur ki, 1920-ci il 1 dekabr tarixli bəyanatdan sonra, dekabrın 5-də Naxçıvanda əhalinin narazılığı başlanmış, narazılığı aradan qaldırmaq və əhalini sakitləşdirmək üçün Behbud ağa Şahtaxtinski dekabrın 15-də Naxçıvana gəlmişdi. Behbud ağa Şahtaxtinskinin apardığı işlər nəticəsində əhali nisbətən sakitləşmiş, Azərbaycan İnqilab Komitəsinin 1920-ci il 1 dekabr tarixli bəyannaməsi, Ermənistan İnqilab Komitəsinin Naxçıvanın müstəqilliyini rədd etmək haqqında 1920-ci il 26 dekabr və Naxçıvanı müstəqil Sovet Respublikası kimi tanıması haqqında 1920-ci il 28 dekabr tarixli bəyanatları öz hüquqi qüvvəsini itirmişdi. Onun 1921-ci ilin yanvarında əhali arasında Naxçıvanın taleyi ilə bağlı keçirdiyi referendum və əhalinin 90 faizdən çoxunun Naxçıvanın Azərbaycanın tərkibində qalmasına səs verməsi Naxçıvanın gələcəkdə muxtar respublika kimi Azərbaycanın tərkibində saxlanmasında mühüm rol oynadı.

Kitaba daxil edilmiş sənədlərdən aydın olur ki, 1921-ci il yanvarın 12-də Naxçıvana komissar təyin olunan Behbud ağa Şahtaxtinski Naxçıvan bölgəsinin müxtəlif yerlərində olaraq vəziyyəti dərindən öyrənmiş, bir sıra faktları dəqiqləşdirmiş və bununla əlaqədar geniş məruzə hazırlayaraq həmin il aprelin 19-da Azərbaycan İnqilab Komitəsinin Rəyasət Heyətinin iclasında çıxış etmişdi. Məruzədə ermənilərin Naxçıvanda törətdikləri vəhşiliklər geniş təsvir olunmuş, Qərbi Azərbaycandan didərgin salınmış 500 min nəfərdən artıq qaçqının böyük bir hissəsinin Naxçıvana pənah gətirməsi səbəbindən vəziyyətin daha da pisləşməsi diqqətə çatdırılmışdır. Məhz bu məruzədən sonra Azərbaycan İnqilab Komitəsi Naxçıvanda vəziyyəti qaydaya salmaq üçün müəyyən tədbirlər həyata keçirmişdi.

1921-ci il martın 16-da Moskvada Rusiya ilə Türkiyə arasında imzalanan "Dostluq və qardaşlıq haqqında" müqavilədə Naxçıvanın Azərbaycanın tərkibində qalması ilə əlaqədar maddənin salınmasında xüsusi rolu olan Behbud ağa Şahtaxtinski 1921-ci il oktyabrın 13-də Azərbaycan SSR, Ermənistan SSR, Gürcüstan SSR hökumətləri ilə Türkiyə Böyük Millət Məclisi hökuməti arasında RSFSR hökuməti nümayəndələrinin iştirakı ilə Qarsda bağlanan müqaviləni Azərbaycan hökumətinin təmsilçisi kimi imzalamış, bununla da, Naxçıvanın gələcək siyasi-hüquqi statusu müəyyənləşdirilmiş, Naxçıvan ərazisinin Türkiyə ilə sərhədi 11 kilometr uzunluğunda təsdiq olunmuşdu. Beləliklə, Qars danışıqlarında Behbud ağa Şahtaxtinskinin qətiyyətli mövqeyi sayəsində müqavilənin V maddəsi və III əlavəsi Naxçıvanın ərazi mənsubiyyəti məsələsinə son qoydu. Onun Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsi danışıqlarda iştirak edənlərin imzaları ilə təsdiqləndi. Ermənistanı təmsil edən İ.Mravyanın və B.Makinzyanın müqaviləyə imza atması ilə Ermənistan Naxçıvanın Azərbaycanın tərkibində muxtar ərazi statusunu tanımış oldu. Məhz buna görə də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun sözləri ilə desək: ***"43 illik mübarizələrlə dolu qısa, lakin mənalı həyatında Behbud ağa Şahtaxtinski heç nə etməsəydi belə, xalqımızın tarixi taleyində mühüm rol oynayan Moskva və Qars beynəlxalq müqavilələrinin imzalanmasında göstərdiyi vətənpərvərlik və siyasi uzaqgörənlik onun adını Azərbaycanın görkəmli şəxsiyyətləri ilə bir sırada qoymağa tamamilə əsas verir".***

Kitabdakı arxiv materialları və sənədlərdən də məlum olduğu kimi, Naxçıvanda işləyərkən Behbud ağa Şahtaxtinski vəziyyəti normal hala salmaq üçün çox çalışmış, məcburən bir sıra sərt tədbirlər həyata keçirmiş, hətta bəzi komissarların vəzifədən azad edilərək partiya sıralarından uzaqlaşdırılmasına nail olmuşdu. 1921-ci ildə Naxçıvan SSR Xalq Komissarları Sovetinin Sədri təyin edildiyi zaman Naxçıvanda dəhşətli quraqlığın baş verməsi, bu səbəbdən onsuz da ağır olan vəziyyətin daha da ağırlaşmasına baxmayaraq, Behbud ağa Şahtaxtinskinin yüksək təşkilatçılıq bacarığı sayəsində əhalinin və bölgəyə gəlmiş qaçqınların vəziyyətinin yaxşılaşdırılması istiqamətində tədbirlər həyata keçirilmişdi. Bunun üçün hətta xarici ölkələrin, beynəlxalq təşkilatların kömək və yardımından da istifadə edilmiş, digər yerlərdən Naxçıvana taxıl və müxtəlif ərzaq məhsulları gətirilmişdi. Bütün bu tədbirlərin sayəsində Naxçıvan əhalisi və orada yerləşdirilən qaçqınlar qismən də olsa, çətinliklərdən və məhv olmaqdan xilas olmuşdu.

Kitabda Behbud ağa Şahtaxtinskinin siyasi publisistikası da öz geniş əksini tapmışdır. Onun "Zakavkazye", "Nicat", "Kaspi", "Azərbaycan" kimi rusdilli mətbuat orqanlarında dərc olunan, milli şüurun oyanmasına, milli təfəkkürün formalaşmasına, mühüm siyasi və mənəvi problemlərin həllinə xidmət edən məqalələri oxuculara ilk dəfə təqdim olunur. Tariximiz üçün çox əhəmiyyətli olduğunu nəzərə alaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Himayəçilik Şurasının təşkilatçılığı ilə bu il aprelin 14-də "Behbud ağa Şahtaxtinski: sənədlər və materiallar" kitabının təqdimat mərasimi keçirilmişdir. Təqdimat mərasimində Behbud ağa Şahtaxtinskinin həyatı və siyasi fəaliyyətinin müxtəlif məqamları, o cümlədən onun Naxçıvanın ərazi məsələsi və muxtariyyət statusu məsələsi ilə əlaqədar fəaliyyəti, göndərdiyi teleqramlar, yazdığı məqalələr, yaradıcılığında təhsil məsələləri, hazırlanmasında iştirak etdiyi, yaxud imzaladığı müqavilələr, diplomatik və publisistik fəaliyyəti haqqında çıxışlar dinlənilmişdir.

Elmi ictimaiyyətə, geniş oxucu auditoriyasına təqdim olunan bu əsərin Ali Məclis Sədrinin himayəsi ilə nəşr etdirilməsi görkəmli dövlət xadimi, diplomat Behbud ağa Şahtaxtinskinin həyatı və siyasi fəaliyyətinin, özündən sonra miras qoyub getdiyi irsin öyrənilməsi və təbliği ilə əlaqədar Naxçıvan Muxtar Respublikasında həyata keçirilən tədbirlərin davamı istiqamətində atılan mühüm bir addımdır. Kitab Naxçıvanşünaslığa dəyərli töhfə, sovet hakimiyyəti dövründə məqsədyönlü şəkildə unutdurulmuş, Azərbaycan dövlətçilik və diplomatiya tarixində özünəməxsus yeri olan Behbud ağa Şahtaxtinski haqqında aparılacaq gələcək tədqiqatlar üçün qiymətli istinad mənbəyidir. İnanırıq ki, görkəmli dövlət xadimi və diplomat Behbud ağa Şahtaxtinski irsinin böyük bir hissəsinin toplandığı, nadir tarixi faktların yer aldığı bu kitab Azərbaycanın, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanın tarixi ilə maraqlananlar üçün gərəkli bir vəsait olacaqdır.

**Fəxrəddin SƏFƏRLİ**
***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü***

## İcbari sığortalar sahəsində vəzifələr müzakirə olunub

***Aprelin 21-də Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyində Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi ilə birgə daşınmaz əmlakın və daşınmaz əmlakın istismarı zamanı mülki məsuliyyətin icbari sığortası sahəsində görülmüş işlər və qarşıda duran vəzifələrlə əlaqədar tədbir keçirilib.***

Tədbirdə Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov çıxış edərək bildirib ki, "İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununa əsasən ölkəmizdə daşınmaz əmlakın və daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortasının həyata keçirilməsinə nəzarət Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinə həvalə olunub. Bu məqsədlə Naxçıvan Muxtar Respublikasında bu kateqoriyadan olan icbari sığorta müqavilələrinin bağlanılması üzrə verilmiş tapşırıqların yerinə yetirilməsi istiqamətində Dövlət Baş Sığorta Agentliyi Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi ilə birgə nəzarət tədbirlərinin artırılması, maarifləndirici tədbirlərin keçirilməsi istiqamətində səy göstərməlidir.



Bildirilib ki, Naxçıvan Muxtar Respublikasında 2016-cı ildə icbari sığortalar üzrə görülmüş tədbirlər nəticəsində sahibkarlara məxsus daşınmaz əmlakın icbari sığortası üzrə 910 müqavilə, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə 533 müqavilə bağlanılıb. Ümumilikdə, hər iki sığorta növü üzrə sahibkarlarla 1443 müqavilə bağlanılıb. Cari ildə də bu istiqamətdə görülən işlərin nəticəsi olaraq sığorta müqavilələrinin bağlanılması davam etdirilir. Belə ki, cari ilin ilk üç ayında sahibkarlara məxsus daşınmaz əmlakın icbari sığortası üzrə 84, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə isə 101 müqavilə olmaqla, cəmi 185 müqavilə bağlanılıb. Lakin hələ də qeyd edilən icbari sığorta növləri üzrə bəzi sahibkarların vaxtında sığorta müqavilələri bağlamaqdan yayınmaları müşahidə edilməkdədir. Belə hallara yol verilməməsi və sığorta müqavilələrinin vaxtında bağlanılaraq, sahibkarların öz üzərlərinə düşən vəzifələri yerinə yetirmələrini təmin etmək üçün izahat və maarifləndirmə işləri genişləndirilməlidir.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası fövqəladə hallar nazirinin müavini, daxili xidmət polkovnik-leytenantı Nurlan Həsənov qanuna uyğun olaraq Fövqəladə Hallar Nazirliyi tərəfindən hər iki icbari sığortalar üzrə müqavilələrin bağlanılmasına nəzarətin gücləndirilməsinin zəruriliyini qeyd edib, bu sahədə nazirliyin üzərinə düşən vəzifələrdən danışıb.

Tədbirdə şəhər, rayon Dövlət Sığorta agentliklərinin direktorları və rayon Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin rəisləri çıxış ediblər.

✍ **Əli CABBAROV**

23 aprel Ümumdünya Kitab və Müəllif Hüquqları Günüdür

# Kitaba hörmət xalqın mədəni inkişafını nümayiş etdirən amillərdəndir




***YUNESKO 1995-ci il noyabrın 15-də Parisdə keçirilən 28-ci sessiyasında hər il aprel ayının 23-nü Ümumdünya Kitab və Müəllif Hüquqları Günü elan etmişdir.***

Kitab bəşər mədəniyyətinin inkişafında mühüm rol oynayan ən böyük kəşflərdən biridir. Əfsanələr, əsatirlər, rəvayətlər, qəhrəmanlıq dastanları, əmək mahnıları əvvəllər şifahi formada yazılmış, sonralar isə daş, dəri və ağac üzərinə yazılaraq bu günə qədər gəlib çatmışdır. Əlifba və yazının yaranması, kağızın kəşfi, əlyazmalar, çapçılığın ixtira edilməsi, kitabxanaların yaranması kitabın inkişaf mərhələsində ən mühüm səhifələrdir. Kitabın insan həyatına daxil olması, kitabların çoxalması həm də müəlliflik hüququnun yaranması zərurətini meydana gətirmişdir. Orta əsrlərdə Azərbaycan şairləri öz şeirlərinin sonunda poetik adlarını işlətməklə müəlliflik hüququnun səmərəli qorunma formasını yaratmışlar.

Orta əsrlərdə Şərqdə kağız istehsalının yaranması və yayılması Azərbaycanda da kitab mədəniyyətinin inkişafına səbəb olmuş, ədəbiyyat, fəlsəfə, məntiq, coğrafiya, təbabət, astronomiya, tarix, riyaziyyat, əxlaq və başqa sahələrə aid əsərlərin meydana çıxmasını şərtləndirmişdir. Orta əsrlərin böyük ədəbiyyat və elm ustadları olan Xətib Təbrizi, Məhsəti Gəncəvi, Əfzələddin Xaqani, Nizami Gəncəvi, Nəcməddin Naxçıvani, Məsud Naxçıvani, Hinduşah Naxçıvani, Nəsirəddin Tusi, Qətran Təbrizi, Bəhmənyar və başqalarının müəllif hüquqlarının qorunmasını ortaya qoyan əlyazmaları ölkəmizdən kənarda da böyük şöhrət qazanmışdır. Bu əlyazmalar ölkəmizdən başqa, dünyanın bir sıra ölkələrində – ABŞ, Rusiya, Fransa, Almaniya, Vatikan, Polşa, Çexiya, Çin, Türkiyə, İran, Özbəkistan və başqa ölkələrdə də bəşəriyyətin nadir sənət incisi kimi qorunub saxlanılır. Bütün bunlar müəllif hüquqlarının qədim tarixindən xəbər verməklə bərabər, həm də zəngin kitab mədəniyyətimizin göstəricisidir.









***“Azərbaycan xalqının milli sərvəti onun intellektual potensialıdır, mədəniyyəti, ədəbiyyatıdır. Biz müstəqil dövlətimizi boş yerdə qurmağa başlamamışıq. Bizim iqtisadi potensialımız kimi başqa bir sərvətimiz – intellektual potensialımız da var. Dahi insanlarımız Azərbaycanın böyük intellektual potensialını, mülkiyyətini yaradıblar”,*** – deyən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev milli sərvətimiz olan mədəniyyətimizi, ədəbiyyatımızı, kitab nəşrini, bir sözlə, xalqımızın intellektual potensialını yüksək qiymətləndirmiş, kitab nəşri və müəlliflik hüququ sahəsində böyük işlər həyata keçirmişdir.

Ötən əsrin 70-ci illərindən başlayaraq ulu öndərimizin rəhbərliyi ilə Azərbaycanda mətbəə və nəşriyyat sahələri yenidən qurulmuş, kitab nəşrinin kütləviliyini təmin etmək üçün mühüm tədbirlər həyata keçirilmiş, bu sahədə çalışan intellektual və yaradıcı insanlara hərtərəfli qayğı göstərilmişdir. Müstəqillik illərində də ulu öndər Heydər Əliyev tərəfindən kitab nəşri və müəlliflik hüququ sahəsində ardıcıl tədbirlər görülmüşdür. 1996-cı ildə “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında”, 1998-ci ildə “Kitabxana işi haqqında”, 2000-ci ildə “Nəşriyyat işi haqqında”, 2003-cü ildə “Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında” Azərbaycan Respublikasının qanunlarının qəbul edilməsi bu sahədə zəngin qanunvericilik bazasının yaradılmasına səbəb olmuşdur. Ölkəmizdə Müəllif Hüquqları Agentliyi yaradılmış, Azərbaycan Respublikası “Ədəbi-bədii əsərlərin qorunması haqqında” Bern Konvensiyası və “Müəllif hüquqları haqqında” Ümumdünya Konvensiyasına qoşularaq geniş beynəlxalq əməkdaşlığa da başlamışdır. Ulu öndər kitab nəşrinə yüksək qiymət verərək demişdir: ***“Kitab nəşri hər bir ölkənin, xalqın mədəniyyətində, ümumiyyətlə, mənəvi-ictimai həyatında çox görkəmli yer tutur. Ona görə də hər birimiz kitablara borcluyuq”.***

Ölkə Prezidenti cənab İlham Əliyev “Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında, “Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında”, “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” sərəncamlar imzalamışdır. Bu gün Azərbaycanın tarixi, mədəniyyəti, musiqisi, xalçaları, muğamları, xalq yaradıcılığı, ədəbiyyatı, memarlığı, mədəni irsi haqqında nəşr olunan kitablar, elektron daşıyıcılar zəngin elmi və mədəni potensialımızın dünyada tanıdılması, xalqımızın müəlliflik hüququnun beynəlxalq aləmdə qorunması istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlərdir. Görülən işlərin bəhrəsi olaraq xalqımızın zəngin mədəniyyətinin və tarixinin ən gözəl inciləri YUNESKO tərəfindən bəşəriyyətin qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir.

Naxçıvan Muxtar Respublikasında da kitab nəşri və müəllif hüquqlarının qorunmasına ciddi diqqət yetirilir, bu sahədə görülən işlərin əhatə dairəsi genişləndirilir. ***“Kitabxanaya və kitablara olan diqqət hər bir ölkənin inkişaf və tərəqqisində başlıca şərtdir”,*** – deyən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun diqqət və qayğısı ilə son illər muxtar respublikada fəaliyyət göstərən kitabxanaların yenidən qurulması, müasir binalara köçürülməsi, maddi-texniki bazalarının möhkəmləndirilməsi, elektron kitabxanaların istifadəyə verilməsi, kənd mərkəzlərində və ümumtəhsil məktəblərində zəngin kitabxana fondlarının yaradılması, nəşriyyatların müasir çap avadanlıqları və yeni bina ilə təmin olunması geniş mütaliə imkanları yaratmaqla yanaşı, həm də kitab nəşrinin sürətləndirilməsinə, müəlliflərin azad və maneəsiz fəaliyyətinə hesablanıb. Bu məqsədlə həyata keçirilən tədbirlərin tərkib hissəsi olaraq, Naxçıvan şəhərində Kitab Evi fəaliyyətə başlamış, Naxçıvan Muxtar Respublika Kitabxanasının binası əsaslı şəkildə yenidən qurularaq elektron kitabxana sistemi istifadəyə verilmişdir.



Muxtar respublikada təhsil və elm müəssisələrində də kitabxanaların yenidən qurulması davamlı olaraq həyata keçirilir. Naxçıvan Dövlət Universitetində və Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində elektron kitabxanaların istifadəyə verilməsi bunu bir daha təsdiq edir. Bundan başqa, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində audio və elektron kitabxana istifadəyə verilmiş, müvafiq kateqoriyadan olan insanların mütaliəsi üçün lazımi şərait yaradılmışdır.

Bu gün muxtar respublikada kitabxanaların maddi-texniki bazasının gücləndirilməsi ilə yanaşı, kitab fondlarının zənginləşdirilməsi istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 yanvar tarixli Sərəncamına əsasən, muxtar respublikanın kitabxanalarına yüz minlərlə elmi və bədii ədəbiyyat paylanmışdır. Təkcə 2016-cı ildə muxtar respublikanın mədəniyyət ocaqlarına 1841 adda 20 mindən çox kitab və çap məhsulu daxil olmuşdur.

Bu sahədə həyata keçirilən tədbirlərin nəticəsidir ki, bu gün istər Naxçıvan şəhərində, istərsə də ucqar dağ kəndlərində kitabxana işi müasir tələblər səviyyəsində qurulmuşdur. Bu da insanların kitaba olan marağını artırmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğı və himayəsi sayəsində nəşr olunmuş “Naxçıvan Ensiklopediyası”, “Naxçıvan Abidələri Ensiklopediyası”, “Naxçıvan xanlığı”, “Naxçıvan tarixi atlası”, “Naxçıvan folkloru”, “Naxçıvan teatrının salnaməsi”, “Naxçıvan milli geyimləri”, “Naxçıvanda arxeoloji tədqiqatlar”, “Nuh Peyğəmbər, Dünya tufanı və Naxçıvan”, “Naxçıvan tikmələri”, “Uşaqlar və Günəş”, “Naxçıvan mətbəxi”, “Naxçıvan-Şərur el yallıları”, “Naxçıvan bəstəkarlarının uşaq mahnıları”, “Naxçıvan tarixi” çoxcildliyi, “Gülüstan türbəsi”, “Əlincəqala” və başqa kitablar tariximizi və milli dəyərlərimizi öyrənmək üçün dəyərli elmi mənbələrdir. Bu kimi tədbirlərin və işlərin ardıcıl həyata keçirilməsi dövlətin bu sahəyə xüsusi önəm verməsinin göstəricisidir.

Muxtar respublikada müasir nəşriyyat və mətbəələrin fəaliyyət göstərməsi bu sahənin inkişafında mühüm rol oynayır. Naxçıvanda yaşayan yaradıcı şəxslər bu gün kitab nəşri sarıdan heç bir çətinlik çəkmirlər. Son 10 il ərzində şair və yazıçıların 600-ə yaxın kitabı işıq üzü görmüşdür. Bütün bunlar bir daha muxtar respublikada müəllif hüquqlarına və kitab işinə göstərilən qayğının bariz nümunəsidir.

Gənc nəsildə vətənpərvərlik, torpağa bağlılıq, ləyaqət, mərhəmət, xeyirxahlıq kimi mənəvi dəyərlərin inkişafında kitab əvəzsiz xəzinədir. Şəxsiyyət olaraq insanın formalaşıb kamilləşməsində, mənəvi aləminin zənginləşdirilməsində, bədii təxəyyülünün, obrazlı və məntiqi təfəkkürünün, idraki bacarıqlarının inkişafında, hətta bir çox hallarda isə həyat yolunun müəyyənləşməsində və vətəndaşlıq tərbiyəsində kitab və mütaliənin rolu mühüm əhəmiyyət kəsb edir. Kitablar həm də dilimizi sevdirməyin ən gözəl vasitəsidir. Bu mənada, Ümumdünya Kitab və Müəllif Hüquqları Günü hər kəsin diqqətini kitabların və müəllif hüquqlarının qorunmasına cəlb etməlidir. Xalqımıza Əcəmi Naxçıvani, Bəhruz Kəngərli, Mirzə Cəlil, Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Yusif Məmmədəliyev, Əziz Şərif, Məmməd Araz, İslam Səfərli və digər görkəmli yaradıcı şəxsiyyətlər bəxş edən Naxçıvan torpağında müəllif hüquqlarının qorunması sahəsindəki zəngin ənənələr bu gün də davam və inkişaf etdirilir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***



## Görkəmli bəstəkarın 100 illiyi qeyd edilib

***Aprelin 21-də Naxçıvan Dövlət Filarmoniyasında görkəmli Azərbaycan bəstəkarı, Dövlət mükafatı laureatı Tofiq Quliyevin 100 illik yubileyi ilə bağlı tədbir keçirilib.***

Tədbirdə Naxçıvan Dövlət Filarmoniyasının direktoru, Azərbaycan Respublikasının Əməkdar artisti Elman Əliyev “Tofiq Quliyevin həyat və yaradıcılığı” mövzusunda çıxış edərək bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2017-ci il 7 fevral tarixli Sərəncamına əsasən bu il ölkəmizdə görkəmli bəstəkarın 100 illiyi qeyd edilir. Vurğulanıb ki, Tofiq Quliyevin yaradıcılığı geniş və rəngarəng olmaqla həmişə diqqəti cəlb edir. Hələ ötən əsrin 30-cu illərində muğamlarımızın nota köçürülməsi sahəsində gördüyü işlər respublikamızın həyatında mədəni hadisə kimi qiymətləndirilib.

Qeyd olunub ki, görkəmli bəstəkar müxtəlif illərdə 5 musiqili komediya bəstələyib, valslar, fortepiano üçün prelüd, variasiyalar yazıb. Həmçinin bir çox kino musiqilərinin müəllifidir. Bütün bunlarla yanaşı, Tofiq Quliyev estrada musiqisinin əvəzsiz sənətkarı kimi də tanınıb. Bəstəkarın lirik, şux, nikbin və oynaq çalarlı musiqiləri əbədiyaşardır.

Naxçıvan Dövlət Filarmoniyasının Kamera Orkestrinin ifasında Tofiq Quliyevin əsərləri səsləndirilib. Orkestrin solistlərinin ifaları alqışlarla qarşılanıb.

**Əli RZAYEV**

## Turizmin inkişaf prioritetləri müzakirə olunub

*“Naxçıvan” Universitetində “Naxçıvan Muxtar Respublikasında turizmin dinamik inkişaf prioritetləri” mövzusunda konfrans keçirilib. Konfransı giriş sözü ilə universitetin rektoru, professor İsmayıl Əliyev açıb.*



Tədbirdə “Nəqşicahan Holdinq” otellər qrupunun müdiri Bekir Başın “Naxçıvan Muxtar Respublikasının turizm potensialı”, “Naxçıvan” Universitetinin Turizm İnformasiya Mərkəzinin rəhbəri Şahnaz Məmmədovanın “Turizm və insan psixologiyası sferasında turistlə yerli əhali arasındakı münasibətlər”, İdarəetmə fakültəsinin tələbəsi Nağı Rzazadənin “Kafe və restoranlarda turistlərə xidmət mədəniyyəti” mövzularında çıxışları dinlənilib.

Vurğulanıb ki, bu gün Naxçıvanın turizm potensialından səmərəli istifadə etmək məqsədilə mühüm işlər görülüb. Belə ki, turistlər inkişaf və sabitlik olan bölgələrə səyahət edirlər. Muxtar respublikadakı sabitlik imkan verir ki, turistlər öz istirahətlərini mənalı və təhlükəsiz keçirsinlər. Naxçıvan artıq mötəbər beynəlxalq tədbirlərə, idman yarışlarına ev sahibliyi edir. Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunması da bu baxımdan xüsusi əhəmiyyətə malikdir.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

**Nuray ƏSGƏROVA**

*Ordubad rayonunun Çənnəb Kənd Mərkəzində "Ailələrdə sağlam həyat tərzinin aşılanması, reproduktiv sağlamlıq, erkən və qanqohumluğu nikahlarının fəsadları" mövzusunda tədbir keçirilib. Tədbiri rayon İcra Hakimiyyəti başçısının müavini Fərqanə Hüseynli açaraq belə tədbirlərin qadınların maarifləndirilməsindəki rolundan danışıb.*

## Ailələrdə sağlam həyat tərzinin aşılanması istiqamətində maarifləndirici tədbir



Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova "Ailədə qadının sağlam həyat tərzi aşılamasında əsas rolu" mövzusunda çıxış edərək bildirib ki, ailənin xoşbəxtliyi onun möhkəmliyindən asılıdır. Ailə nə qədər güclüdürsə, cəmiyyət də bir o qədər möhkəm və toxunulmazdır. Məhz elə buna görə sağlam ailələrin qurulması üçün dövlətimiz tərəfindən konkret işlər görülür, son illər Ailə Məcəlləsinə zəruri dəyişikliklər olunub, həmçinin qadını, eləcə də yetkinlik yaşına çatmayan qızları nikaha daxil olmağa məcbur etməyə görə cinayət məsuliyyəti müəyyən edilib. Ailəyə yönəlmiş tibbi xidmət infrastrukturunun, o cümlədən reproduktiv sağlamlığın qorunması sisteminin daha da təkmilləşdirilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 13 iyun tarixli Sərəncamı ilə "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı" təsdiq edilib. Ailə qanunvericiliyi muxtar respublikadakı ailələrdə münasibətlərin qarşılıqlı məhəbbət və hörmət hissləri əsasında qurulmasını, ailə üzvlərinin ailə qarşısında məsuliyyətini, onların hüquqlarının qorunmasını müəyyən edib.

Cəmiyyətdə erkən nikah hallarının yolverilməzliyi və qanqohumluğu nikahları bağlanarkən müvafiq tibbi müayinədən keçmənin vacibliyini vurğulayan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri qeyd edib ki, lazımi tədbirlər görülmədikdə ailələrdə sağlamlıq imkanları məhdud uşaqlar doğulur. Komitənin apardığı təhlillərə görə, muxtar respublikada yaşayan sağlamlıq imkanları məhdud uşaqların 8,5 faizi və ya 172-si Ordubad rayonunda yaşayır. Bu da rayon üzrə uşaqların 0,97 faizini təşkil edir. Rayon üzrə 119 anadangəlmə sağlamlıq imkanları məhdud uşaqlardan 19-u uşaq serebral iflici, 12-si bud çıxığı, 12-si əqli zəiflik, 9-u daun, 8-i lal-kar, 7-si doğuş travmasının qalığı xəstəliklərindən əziyyət çəkir. Sonradan sağlamlıq imkanları məhdud olmuş 53 uşaqda isə əsas xəstəliklər şəkərli diabet, ürək qüsuru və sair xəstəliklərdir.

Sonra Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkim-ginekoloqu, tibb üzrə fəlsəfə doktoru Gültəkin Əliyeva "Hamilə qadınların qidalanması, gigiyenası və qadınlarda virus hepatitlərinin fəsadları" mövzusunda çıxış edərək reproduktiv sağlamlıq, həmçinin Ordubad rayonu üzrə anadangəlmə sağlamlıq imkanları məhdud uşaqlar arasında ən çox rast gəlinən xəstəliklərin yaranma səbəbləri barədə tədbir iştirakçılarına ətraflı məlumat verib.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb, onlara maarifləndirici broşürlər paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublika Xəstəxanasında keçirilən mülki müdafiə təlimi başa çatıb

***Aprelin 20-21-də Naxçıvan Muxtar Respublikası Səhiyyə və Fövqəladə Hallar nazirliklərinin birgə təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublika Xəstəxanasında ikigünlük kompleks mülki müdafiə təlimi keçirilib.Tədbirdə mülki müdafiə qərargahının, ilk tibbi yardım dəstəsinin, ixtisaslaşdırılmış həkim yardım briqadalarının və obyekt mülki müdafiə dəstələrinin şəxsi heyətləri iştirak ediblər.***

Xəstəxananın baş həkimi, mülki müdafiə rəisi Əli Ələsgərov səhiyyə müəssisəsində mülki müdafiə işinin təşkili sahəsində görülən işlərdən, ilk tibbi yardım dəstəsinin, cərrahların, mülki müdafiə qərargahının, yanğınsöndürmə, rabitə, xilasetmə, təxliyə, mühafizə, sığınacaqlarda xidmət manqalarının, radiasiya-kimya müşahidə postunun normal işi üçün yaradılan şəraitdən danışıb.

Təlimin rəhbəri, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə işinin təşkili şöbəsinin rəisi, polkovnik Emin Qasımov bildirib ki, iki mərhələdə keçirilən kompleks mülki müdafiə təlimində əsas məqsəd Naxçıvan Muxtar Respublika Xəstəxanasının mülki müdafiə planında çatışmazlıqları müəyyən etmək və onların aradan qaldırılması üzrə zəruri tədbirlər görmək, təbii və texnogen xarakterli fövqəladə halların tibbi-sanitar nəticələrinin aradan qaldırılmasına cəlb olunan tibb qüvvələrinin hazırlığını yoxlamaqdır. Fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması üzrə vahid dövlət sistemi çərçivəsində Naxçıvan Muxtar Respublika Xəstəxanası ilə digər dövlət orqanlarının qarşılıqlı əlaqəsinin təşkilini təmin etmək də qarşıya qoyulan əsas məqsədlərdən biridir.



Təlimə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə işinin təşkili şöbəsinin rəisi, polkovnik Emin Qasımov rəhbərlik edib.

Təlimdə həkim və orta tibb işçilərinin nəzəri bilikləri yoxlanılmaqla yanaşı, şərti şərait üzrə yaradılan vəziyyətlərdə, çöl-səhra şəraitində həkiməqədərki yardımın, tibbi təxliyə mərhələlərində və ixtisaslaşdırılmış həkim yardımlarının göstərilməsi, həmçinin radioaktiv, kimyəvi, bioloji (bakterioloji) zəhərlənmələr zamanı xəstəxanada görüləcək tədbirlər praktik olaraq yerinə yetirilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*İdman xəbərləri*

## Beynəlxalq turnir öncəsi seçmə yarış keçirilib



Məlum olduğu kimi, mayın 3-7-də Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev Kuboku" uğrunda pouerliftinq və bench press idman növləri üzrə beynəlxalq turnir keçiriləcəkdir. Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman nazirlikləri, Azərbaycan Respublikası Pouerliftinq Federasiyasının birgə təşkil edəcəyi beynəlxalq turnir öz reqlamentinə görə digər turnirlərdən fərqlənəcək.

Turnirdə iştirak edəcək Naxçıvan Muxtar Respublikası yığma komandasının tərkibini müəyyən etmək üçün İlham Əliyev adına Olimpiya-İdman Kompleksində seçmə yarış keçirilib. Yarışda muxtar respublikanın şəhər və rayonlarını təmsil edən 50-dən çox idmançı qüvvəsini sınayıb. Seçmə yarışda qalib olan, eyni zamanda fərqlənən idmançılar muxtar respublikanı beynəlxalq turnirdə təmsil edəcəklər.

## *"Sərhəd"* hərbi-idman oyununun Naxçıvan şəhər mərhələsi olub

*"Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasında Naxçıvan şəhər tam orta məktəblərinin komandaları arasında "Sərhəd" hərbi-idman oyununun Naxçıvan şəhər mərhələsi keçirilib.*

10 komandanın iştirak etdiyi hərbi-idman oyununda komandalar sıra hazırlığı, süni nəzarət zolağının yaradılması, kəndirin dartılması, sərhəd naryadı tərəfindən nəqliyyat vasitələrinə baxışın təşkili, avtomatın sökülməsi və yığılması, maneələrin dəf olunması, maskalanma və yaralanmış sərhəd naryadı üzvünə ilkin tibbi yardımın göstərilməsi və onun təxliyəsi mərhələləri üzrə öz qüvvələrini sınayıblar.

"Naxçıvan" Əlahiddə Sərhəd Diviziyası, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi və Naxçıvan Şəhər Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə keçirilən hərbi-idman oyununun yekun nəticəsinə əsasən, 2 nömrəli tam orta məktəbin komandası qalib olub. Digər iki pillədə isə 15 və 16 nömrəli tam orta məktəblərin komandaları qərarlaşıblar.

Qalib komandalara təşkilatçıların diplomları təqdim olunub. Məlumat üçün qeyd edək ki, 2 nömrəli tam orta məktəbin komandası II mərhələdə, yəni Naxçıvan Muxtar Respublikası zona mərhələsində Naxçıvan şəhərini təmsil edəcəkdir.

## Atıcılığın tir növü üzrə muxtar respublika açıq birinciliyinə yekun vurulub

***Muxtar respublikada fəaliyyət göstərən ali təhsil müəssisələrinin oğlan və qız tələbələri arasında keçirilən atıcılığın tir növü üzrə Naxçıvan Muxtar Respublikası açıq birinciliyinə yekun vurulub. Atıcılıq Mərkəzində keçirilən yarışda 30-a yaxın idmançı mübarizə aparıb.***



Birincilik Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə muxtar respublikanın Atıcılıq Federasiyasının birgə təşkilatçılığı ilə keçirilib.

Oğlanların mübarizəsində Naxçıvan Müəllimlər İnstitutunun tələbəsi Nihad Novruzov hədəfi daha dəqiq nişan alaraq qalib adını qazanıb. Naxçıvan Dövlət Universitetinin tələbəsi Qəşəm Əkbərov ikinci, universitetin digər tələbəsi Yuris Allahverdiyev üçüncü olublar. Qızlar arasında isə Naxçıvan Müəllimlər İnstitutunun tələbəsi Gülnar Əlizadə fəxri kürsünün ən yüksək zirvəsinə qalxıb. Digər iki pillədə Naxçıvan Dövlət Universitetinin tələbəsi Nuray Mahmudova və Naxçıvan Müəllimlər İnstitutunun tələbəsi Ayla Əsədli qərarlaşıblar.

Qaliblərə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin diplomları təqdim olunub.

**✍ Ceyhun MƏMMƏDOV**

## Xaricdən köhnə malların gətirilməsinə qarşı mübarizə tədbirləri davam etdirilir

***Xaricdən muxtar respublikamıza işlənmiş, köhnə malların gətirilməsinə qarşı mübarizə tədbirləri davam etdirilir. Bu məqsədlə müvafiq müşayiət sənədləri olmayan, standartlara cavab verməyən "ikinci əl" məişət avadanlıqları, ev əşyaları, elektrik və təsərrüfat malları, geyimlər gömrük orqanları tərəfindən saxlanılaraq barəsində tədbirlər görülür. Belə ki, xaricdən köhnə, işlənmiş malların gətirilməsinin yolverilməz olduğu vətəndaşlara izah olunur, gətirilən bu cür malların geri qaytarılmasının təmin olunması üçün müəyyən vaxt verilir. Verilmiş müddət başa çatandan sonra gömrük orqanlarının müvəqqəti saxlanc anbarlarında qalan mallar məhv edilir.***

Sədərək sərhəd-keçid məntəqəsinin yaxınlığında həyata keçirilən növbəti məhvetmə tədbirində 22 adda 54 ədəd elektrik və qazla işləyən avadanlıq, 11 adda 25 ədəd mebel avadanlığı, 16 adda 131 ədəd müxtəlif ev əşyaları, ümumilikdə, 930 kiloqram geyim, 15 adda isə digər qarışıq mallar yandırılaraq məhv olunub.



Məhvetmə tədbirində iştirak edən Şərur Rayon Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru Məhərrəm Qədimov qeyd edib ki, xaricdən gətirilən köhnə, işlənmiş əşyalar müxtəlif yoluxucu xəstəliklərin mənbəyidir. İnsanların istifadə etdikləri, birbaşa təmasda olduqları əşyalar gigiyenik cəhətdən sağlam və təhlükəsiz olmalıdır ki, istifadə zamanı hansısa fəsadlar ortaya çıxmasın. Digər tərəfdən indi müxtəlif ölkələrdə mənşəyi bilinməyən, müxtəlif yollarla asanlıqla yayıla bilən yoluxucu xəstəlik törədiciləri vardır. Xaricdən gətirilən köhnə, işlənmiş əşyalar da bu baxımdan xüsusi riskli amillər sırasındadır.

Araşdırmalar göstərir ki, muxtar respublika hüdudlarından kənarda köhnə, işlənmiş əşyaları müəyyən yerlərdən toplayıb müxtəlif anbarlarda saxlamaqla, Naxçıvana gətirib satışını təşkil etməklə məşğul olan, haradasa atılmalı hesab olunan malların evlərimizə yol tapmasına vasitəçilik etməklə asan qazanc əldə etmək istəyən "işbaz"lar mövcuddur. Bu mənada, xaricdən köhnə malların gətirilməsi qanunla qadağan olunmaqla yanaşı, insan həyat və sağlamlığı üçün də təhlükə mənbəyidir. Məsələn, zamanla keyfiyyət göstəricilərini itirmiş, standartlara cavab verməyən, təhlükəsizliyinə əminlik olmayan elektrik və qazla işləyən köhnə avadanlıqlardan istifadə zamanı yarana biləcək xoşagəlməz halların miqyasını təsəvvür etmək çətin deyil. Bu baxımdan xaricdən muxtar respublikamıza köhnə malların gətirilməsinə qarşı mübarizə tədbirləri çərçivəsində sərhədi keçən vətəndaşlarla fərdi söhbətlər aparılır. Elektron məlumat lövhələrinin də imkanlarından istifadə olunmaqla diqqətə çatdırılır ki, müvafiq standartlara cavab verməyən, gömrük qanunvericiliyi ilə müəyyən edilmiş müşayiət sənədləri olmayan, işlənərək yararsız vəziyyətə düşən malların buraxılışına nə üçün icazə verilmir və belə mallardan istifadənin hansı fəsadları vardır.

Muxtar respublikamızın sərhəd-keçid məntəqələrində köhnə, işlənmiş malların buraxılışına qarşı həyata keçirilən mübarizə tədbirləri, vətəndaşlarla aparılan izahat işlərinin nəticəsidir ki, xaricdən köhnə malların gətirilməsinə cəhd göstərənlərin sayında azalma müşahidə olunur.

Gömrük orqanları insanların sağlamlığının, təhlükəsizliyinin qorunması, xarici ölkələrdə istifadə olunmuş, köhnəlmiş malların ayrı-ayrı şəxslər tərəfindən muxtar respublikamıza gətirilməsinə, istifadə və satışının təşkil olunmasına qarşı mübarizəni bundan sonra da davam etdirəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 325